ədalət.- 2021.- 12 iyun.- S.11.

Vəliyulla Novruz



# Şeyx Nizami Gəncəvi

(əvvəli ötən şənbə sayımızda)

**İlk dəfə olaraq Şeyx Nizaminin bir "Xəmsə"sinə iki "Xəmsə" ilə cavab verən hind ordu ədəbiyyatşünası Əmir Xosrov Dəhləvi (1253 - 1325) olmuşdur. Həmin poemalar bunlardır: "Mətləül - Ənvar", "Şirin və Xosrov", "Məcnun və Leyli", "Ayineyi - İskəndər", "Həşt Behşt". Ə.X.Dəhləvinin ikinci "Xəmsə"sindəki əsərlər isə fəlsəfi - didaktik poemalardır.**

Ə.X.Dəhləvi "Şirin və Xosrov" (1298) poemasında Şeyx Nizamiyə belə qiymət verir:

***Nizami hər sözü demiş birinci,***
***Qoymamış cilalsız qalsın bir inci.***
***Gəncədə yaranıb elə xəzinə,***
***Keçib qənimət tək ələ xəzinə.***
***Parlaq inciləri seçib incidən,***
***İndi öz xəzinəmi bəzəyirəm mən.***

Maraqlıdır ki, Ə.X.Dəhləvi "Şirin və Xosrov" poemasının başqa bir hissəsində şairi tərif edərkən özünü "qarğaya", Nizamini isə "kəkliyə" bənzədir:

*Dirilik suyudur Nizami sözü,*
*Sözdə həyat tapdı, Nizami özü.*
*Ölməz "Xəmsə"sini bəzədi özü,*
*Yeddi səyyarəyə verirdi şövqü.*
*Könlüm usanmadı bu sorağından,*
*Gül dərmək istədim sənət bağından.*
*Güldü gül, çiçəklər basdı səksəkə,*
*Mümkünmü qarğa da, kəklik tək səkə?*

Şeyx Nizaminin "Xəmsə"sinə nəzirə yazan şairlərdən biri də dahi özbək şairi Əlişir Nəvaidir. O, Şeyx Nizaminin "Xosrov və Şirin" poemasına cavab olaraq "Fərhad və Şirin" poemasını yazmışdır. Şeyx Nizami öz əsərində Fərhadı əməkçi xalqın nümayəndəsi kimi təsvir etdiyi halda, Ə.Nəvai isə Fərhadı şah oğlu kimi qələmə almışdır.

Nəvaiyə görə "Yeddi gözəl" poemasında onun sələfləri (Ş.Nizami və Ə.X.Dəhləvi) şahzadə qızlara nağıl danışdırmaqda haqsızdırlar. Şair Bəhram şahın sərxoş vəziyyətdə qarşısında zərif, gözəl qızların nağıl danışması ilə razılaşa bilmir. Məhz buna görə də, şair öz poemasında nağılı şahzadə qızların dilindən deyil, səyyahların dililə verməklə məsələyə öz real münasibətini bildirmişdir. "Əlbəttə, Ə.Nəvainin Ş.Nizami və Ə.X.Dəhləvinin qəhrəmanlarını "cahil" adlandırması və "cahil"lərə qiymətli bir xəzinə həsr etməsinə heyfslənməsi" bizdə dərin təəssüf hissi oyadır. ("SSRİ xalqlarının ədəbiyyatı." Bakı - 1977, 360, s.99). Yenidən Nizami yaradıcılığına qayıdan Ə.Nəvai onun böyüklüyü qarşısında öz heyrətini gizləyə bilməmiş, şairə yüksək qiymət vermişdir: "Nizami yaradıcılığının böyüklüyünü ölçmək üçün göylər qədər böyük tərəzi, yer kürəsi qədər iri daş lazımdır". (Ə.Nəvai "Fərhad və Şirin". Bakı - 1948, 344 s.16)

Məhəmmədəli Tərbiyyat yazır: "Nizamidən sonra yüzlərlə İran və Hindistan şairləri bu dastanı nəzmə



çəkmişlərsə, fəsahətdə, səlisliktə, rəvanlıqda və gözəllikdə onların heç birisi Şeyx Nizaminin əsərlərinə çata bilməmişdir." (Məhəmmədli Tərbiyyat, "Danişməndani - Azərbaycan". Bakı - 1987, 460.s.258).

Şeyx Nizaminin "Xosrov və Şirin" poemasında ən maraqlı fəsillərdən biri "Peyğəmbərin Xosrova məktub yazması" fəslidir. Şair Xosrovu Tanrı deyənə əməl etməyə çağırır. "Allahlığa yalnız bir Allah yarar", - deyir. O çox da özünə güvənməsin. Yadda saxla ki, "Allahın böyüklüyü qarşısında bütün yaranmışlar bir heçdir". Sən gərək "atəşpərəstlikdən dönüb müsəlman olasan":

*Atəşpərəst olma, orda tüstü var,*
*Oda arxalanan Nəmrud sayılar.*
*Bu yaxşı deyil ki, odda qalmısan,*
*Oddan qurtarmaqçün sən ol müsəlman.*

Məhəmməd Peyğəmbər bu məktubu qasidlə Xosrov Pərvizə göndərir.

Şah məktubu oxuyub çox qəzəblənir və onu "cırıb atır". Bundan sonra "Mustafa dininin möcüzəsindən Xosrov Pərvizin taxtü - tacı məhv olub" dağılır. Şair yazır:

***Böyük Məhəmmədin möcüzəsindən,***
***Belə ibrətləri çox oldu görən.***

"Şeyx Nizami Gəncədən kənara çıxmamış, yalnız bir dəfə 1185 və ya 1187 - ci ildə öz iradəsindən asılı olmayaraq şəhəri tərk etmişdir. Qızıl Arslan onu Gəncənin 30 vertsliyində öz çadır düşərgəsində qəbul etmiş, "Xosrov və Şirin" poemasına görə şairə Həmdünyan kəndini və fəxri geyim bağışlamışdır."

(Dövlətşah Səmərqəndi, "Təzkirətüş - şüəra" ("Alimlərin başçısı"). Səmərqənd - 1487. s.128 - 129). Ş.Nizami "Şahı mədh və kitabın sonu" fəslində də özü bunu etiraf edir:

***Qəfildən bir qasid məktub gətirdi,***
***Mənə salam verdi, salam yetirdi.***
***Dedi: "Tez bir aylıq yola hazır ol,***
***Otuz ağaclıqda şah qurub çadır.***
***Səni bir neçə gün görmək istəyir."***

Şair Qızıl Arslanın görüşünə getmiş və bir neçə günlüyə onun qonağı olmuşdur. Dahi sənətkar poemanın sonunda Qızıl Arslanı belə vəsv edir:

*Ölkələr fəth etmiş şahım hər zaman,*
*Yeni ölkələrə olsun hökmüran.*
*Dünyalar durduqca o şahlıq sürsün,*
*Dünyada doğulsun arzusu bütün.*

Şair yaxşı bilirdi ki, o dünyadan köçəndən sonra da onun əsərləri "yüz illər keçsə" belə oxucular tərəfindən həmişə maraqla oxunacaqdı:

*Şeiri oxunanda bu Nizaminin,*
*Özü də hər sözdə görünər yaqin.*
*Gizlədib özünü verməzmi nişan,*
*Sənə hər beytində bir sirr danışan?*
*Yüz il sonra sorsan bəs o hardadır?*
*Hər beyti səslənər: "Burda, burdadır!"*

**Doğrudan da, Şeyx Nizami sözdən elə bir əzəmətli qala qurdu ki, bu sənət abidəsi min illər keçsə belə o öz möhtəşəmliyini daim qoruyub saxlayacaqdır.**